**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
F-395 nömrəli 04 09 2020-ci
il tarixli qərarı ilə təsdiq
edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

**BAKALAVRİAT SƏVİYYƏSİNİN**
**İXTİSAS ÜZRƏ**

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050311– Operator sənəti**

**BAKI – 2020**

**BAKALAVRİAT SƏVİYYƏSİNİN 050311 – OPERATOR SƏNƏTİ İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI**

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **050311 – Operator sənəti** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **050311 – Operator sənəti** ixtisası üzrə bakalavr (əsas (baza ali) hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir.

- ixtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- ixtisası üzrə, ən azı, bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyənetmə bacarıqlarına;
- iş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;

- yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək, tənqid və özünütənqid vərdişlərinə yiyələnməyə;
- gələcək peşə fəaliyyətlərinə dair normativ və hüquqi sənədlərin tərtibinə və onlardan istifadə etməyə, pozulmuş hüquqların bərpa yollarına;
- sağlam həyat tərzini qoruyub saxlamağa;
- mədəniyyətlərarası dialoqa hazır olmağa;
- yeni ideyalar irəli sürməyə və əsaslandırmağa;
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək bacarığına malik olmağa;
- Başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq (empatiya) qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönəlik kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak etməyə (kollektiv iş kompetensiyası);
- Fərqli baxış və yanaşmaların dərk edilməsi və kompleks təhlili, geniş inteqrasiya və dünyada artan müxtəlifliyin fərqli perspektivlərinin ümumiləşdirilməsi bacarığına (multikultural yanaşma və açıqlıq).

  ***Qeyd:*** *İxtisasın spesifikasından asılı olaraq ümumi kompetensiyalara əlavələr edilə bilər.*

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir.

- operator sənətinə aid vizual ifadə elementlərinin yaranma, rəngkarlıq və fotoqrafiyada təkmilləşdirilərək kinoya ötürülmə, dünya kinosunda operator peşəsinin formalaşaraq unikal sənət sahəsinə çevrilmə tarixi ilə bağlı sistemli və dərin bilgilər almalıdır.
- kompozisiyanın komponentlərini - perspektiv və onun növlərini, miqyas və onun daşıdığı yükü, qabartma vasitəsi kimi rakursun funksiyalarını, ifadəli görüntünün əldə olunması məqsədilə istifadə olunan işıq rəsmi və işıqlandırma növlərini öyrənməlidir.
- kompozisiyanın tərtib prinsipləri - tarazlıq, kadrdaxili elementlərin iyerarxiyası: əsas və yardımçı hissələr, tamlıq, proporsionallıq, analogiya (uyğunluq) və təzad, ifadəlilik, aydınlıq və yığcamlıq, unikallıq və kompozisiyanın dəqiqliyi, gerçəklik haqqında konkret bilgilərə yiyələnməlidir.
- fotokompozisiyanın tətbiqini – kadrın müvazinətli quruluş qaydalarını tam mənimsəməlidir.

- vizual formaya aid elementlər: nəzərdə tutulmuş kompozisiyanın tərtib vasitələri, xətlər və tonallıq, optimal vizual təzad, kadrdaxili ritm, dinamika və sükunət, hərəkət və sabitlik, həcm və səthin özəlliyi, işıq rəsmi və koloristik həll ilə kadrdaxili fəzanın təşkili qaydalarını mənimsəməlidir.
- pavilyon, interyer və naturada fərqli işıqlandırma şəraitində aparılan gips, natürmort, portret, peyzaj, reportaj çəkilişlərinin reallaşdırılma qaydalarını öyrənməli, "low light" - zəif işıqlandırma, "hight light" - parlaq işıqlandırma səviyyələrində işləmə variantlarını mənimsəməlidir.
- müəllif yozumunun daha ifadəli vizual formasının əldə olunma, bədii, sənədli, eləcə də televiziya filmi və telelayihə çəkilişlərində operatorun üzərinə düşən funksiyaları qüsursuz yerinə yetirmə vərdişlərinə yiyələnməlidir.
- çəkiləcək ekran əsərinin vizual həllini ehtiva edən təsvir eksplikasiyası, rejissor konsepsiyası, müəllif yozumunu əks etdirən ssenari üzərində quruluşçu rejissor və quruluşçu rəssamla birgə iş prosesinə fərdi yanaşma üsullarını mənimsəməlidir.
- "Lokasiya"nın keçirilməsi və təsdiqi, yeni çəkiləcək obyektlərin müəyyənləşdirilməsi, rejissor ssenarisinə istinadən "Decoupage" və "Storyboard" adlanan istehsalat sənədlərinin hazırlanma, istifadə etdiyi analoq tipli və yaxud, rəqəmsal işığa həssas qəbuledicinin fotoqrafik xassə göstəricilərini müəyyənləşdirmək məqsədilə sensitometrik və eksponometrik sınaq çəkilişlərinin aparılma, istifadə edəcəyi çəkiliş avadanlığının dəstləşdirilməsi bacarıqlarına yiyələnməlidir.
- "Kasting"in keçirilmə qaydalarını öyrənməli, eskizlərin, pavilyonda qurulacaq dekorasiyaların, geyim və makiyajın təsdiqi prosesində operatorun rolu haqqında ətraflı bilgilərə yiyələnməlidir.
- istehsalın "çəkiliş mərhələsində" kinooperator və onun çəkiliş heyətinin üzərinə düşən konkret vəzifələr, mizanların quruluşu ilə kompozisiya və işıq rəsminin, miqyas planlarının, hərəkət sürətinin müəyyənləşdirilməsi və təsdiqi, çəkilmiş dublun təsdiqi prosesində quruluşçu rejissorla birgə iş metodları, çəkiliş meydanında davranış qaydaları ilə tanış olmalıdır.
- çağdaş dünya kinosunda, o cümlədən, bədii, sənədli, eləcə də telefilmlərdə, fərqli janrlı telelayihələrdə operatorların istifadə etdikləri müasir işıqlandırma üsullarını bilməli.
- işıqlandırmaya fərdi yanaşma zərurətini şərtləndirən amillər haqqında daha ətraflı biliklərə yiyələnməlidir.
- ekran əsərlərinin vizual həllinin təhlili vasitəsilə rəqəmsallaşan kino və televiziyada müasir kamera, eləcə də digər təsvir və səs avadanlıqlarından istifadə etməyi bacarmalıdır.
- işıqlandırma ilə bağlı problemlər və onların uğurlu həll yolları haqqında ətraflı bilgilərə yiyələnməlidir.
- istehsalata buraxılan müasir film və telelayihələrin "çəkilişlərə hazırlıq" və "çəkiliş mərhələsi"ndə işıqlandırma ilə bağlı operatorun üzərinə düşən vəzifələri, yaradıcı və texniki heyətin görməli olduğu işləri bilməlidir.
- müasir işıqlandırma üsullarının reallaşma, müasir rəqəmsal kino və teletexnologiyalarla işləmə spesifikasını mənimsəməlidir.

- montaj və işlərin tamamlanma mərhələlərində lazım gəldikdə təkrar çəkilişlərin aparılması, xüsusi effektlərin hazırlanması, işıq, təzad və rəng əyarlamaları zamanı operatorun görəcəyi işlər haqqında bilgilərə malik olmalıdır.
- multikulturalizmin mahiyyəti, multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi başa düşməli, multikulturalizmin formalaşmasının əsas səbəbləri ilə bağlı biliklərə yiyələnməlidir.
- dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmalıdır.
- sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş nəzəri müddəalarla tanış olmalıdır, insanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik dəyərlər və milli mentalitet, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu barədə məlumatlar əldə etməlidir.
- Multikulturalizm siyasət modelinin mahiyyəti və əhəmiyyəti, onun assimilyasiya, izolyasiya və aparteid siyasət modelləri haqqında biliklər əldə etməli, multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi bacarmalıdır.
- Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı biliklər qazanmalıdır.
- mülki müdafiənin əsasları, qüvvə və vasitələri, fövqəladə hallar və onların xarakteristikaları, fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiəsi haqqında bilgilərə malik olmalıdır.
- əhalinin mülki müdafiə ilə bağlı maarifləndirilməsi, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi, fövqəladə halların nəticələrinin aradan qaldırılmasının təşkilini və həyata keçirilməsini mənimsəməlidir.

## 3. Təhsil Proqramının strukturu

**Cədvəl 1**

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn çərçivəsində Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafı, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu öyrənilir və təhlil edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli şəkildə öyrənilməlidir | 5 |

| | | |
|---|---|---|
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya** Bu fənn çərçivəsində tələbələr yazılı və şifahi nitq mədəniyyətinə, auditoriya və işəgötürən qarşısında təqdimat etmək, alınma sözləri düzgün tələffüz etməklə ixtisas üzrə akademik terminologiyaya, mətnlər üzərində iş və işgüzar yazı bacarıqlarıa yiyələnməlidirlər. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya** Bu fənn çərçivəsində tələbələr tədris olunan xarici dildə ixtisas üzrə terminologiyanı öyrənməli, Azərbaycan, Bakı, özü və sənəti haqqında təqdimat etmək, işgüzar yazı, şifahi ünsiyyət bacarıqlarına yiyələnməlidirlər. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər) | |
| 4.1 | Fəlsəfə | 3 |
| | Sosiologiya | |
| | Hüququn əsasları | |
| | Məntiq | |
| | Etika və estetika | |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | 3 |
| | İnformasiyanın idarə edilməsi | |
| | Sahibkarlığın əsasları və biznesə giriş | |
| **Cəmi** | | **30** |
| | **İxtisas fənləri** | |
| 1. | **İxtisasa giriş.** Bu fənn çərçivəsində tələbə operator sənətinə aid olan vizual ifadə elementlərinin yaranması, rəngkarlıq və fotoqrafiyada təkmilləşdirilərək kinoya ötürülməsi ilə bağlı sitemli və dərin bilgilər verilir. | 4 |
| 2. | **Kinooperator sənəti .** Bu fənn çərçivəsində tələbə kinematoqrafik təsvir və onun təbiəti, vizual informasiya daşıyıcıları və onların yükü, görüntüyə bağlı ifadə vasitələrinin vizual sənət sahələrində təkamülü, kinokadr və çəkiliş planı, müəllif fikrinin maddiləşməsində onların rolu və kinematoqrafik vahid kimi kadrın komponentləri ilə bağlı nəzəri biliklər və əməli bacarıqlar aşılanır. | 24 |
| 3. | **Kino və televiziyada işıqlandırma.** Bu fənn çərçivəsində tələbə müəllif yozumunun "ekran obrazı"na transformasiyasında kino və teleişıqlandırmanın rolu, işığın ikili təbiəti, işıq hadisələri və qanunları, işıqlandırma növləri, kompozisiya elementi və ekran görüntüsünü təmin edən vasitə kimi işıq rəsminin yükü, işıq sxemləri və həmin sxemlərdə konkret mənbələrin funksiyaları, eləcə də fotometrik kəmiyyətlərə dair nəzəri biliklər və müvafiq əməli bacarıqlar aşılanır. | 21 |
| 4. | **Filmin istehsalı.** Film istehsalına bağlı çoxmərhələli prosesdə görülən işləri öyrənməli, operatorun, eləcə də çəkiliş heyətinin digər üzvlərinin üzərinə düşən konkret vəzifələri, onların yerinə yetirəcəyi funksiyaları açıqlayan | 5 |

| | | |
|---|---|---|
| | bilgilər verilir. | |
| 5. | **Multikulturalizmə giriş.**Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin xüsusiyyətlərini, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində dövlətin apardığı siyasəti öyrədir. Azərbaycan Respublikasının multukulturalizm siyasətinin, sosial-mədəni proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | 3 |
| 6. | **Mülki müdafiə.** Bu fənn çərçivəsində fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, kütləvi qırğın silahları, nüvə silahı, nüvə silahının tətbiqi və nəticələri, nüvə silahının zədələyici amilləri, radioaktiv çirklənmə, bioloji silahlardan qorunma üsulları barədə bilgilər verilir. Karantin tədbirləri, dinc və müharibə dövründə əhalinin mühafizəsinin xüsusiyyətləri fərdi mühafizə vasitələri, qəza və təbii fəlakətlər zamanı xilasetmə işlərinin təşkili və yerinə yetirilməsi qaydaları, kimyəvi silahlar tətbiq edilərkən davranış və fəaliyyət qaydaları, müxtəlif zədələnmə ocaqlarında və təbii fəlakət rayonlarında ilk tibbi yardım göstərilməsində sanitar drujinalarının təşkil olunması haqqında ən zəruri məlumatlar öyrədilir. | 3 |
| Cəmi | | 60 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | |
| **Cəmi** | | 120 |
| | **Təcrübə və Yekun Dövlət Attestasiya işi** | |
| | **Təcrübə.** Təcrübə kino və telestudiyalarda, universitetin tədris studiyası və fotopavilyonda, xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər | 21 |
| | **Dövlət Yekun Attestasiyası.** Təhsil müddətinin sonunda müdafiəyə əvvəlcədən müəyyən edilmiş janr, mövzu və xronometrajda film təqdim edilir. | 9 |
| CƏMİ | | 240 |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər;

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirələr, seminarlar, əməli yaradıcılıq tapşırıqları;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, çəkiliş tərzi, vizual ifadə vasitələrindın istifadə bacarığı);
- layihələr;
- çəkilişlər;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- təcrübi məşğələlər (praktik çəkilişlər) və təhlillər;
- məsafədən təhsil;
- simulyasiyalar və s.

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki, əməli təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir;

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təhsil konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömür boyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir;

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır. (məsələn, universitetin veb səhifəsində və s.);

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesində feal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- əməli ixtisas fənləri üçün müvafiq meyarlar əsasında;
- bilik və bacarıqlara dair testlər, kompüter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- təcrübə hesabatları;
- təcrübədə, müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- çəkiliş materialları və kurs işlərinə dair hesabatlar;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə və s.

***Qeyd:** sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalı, gələcək sənət adamı ilə ünsiyyətdə xüsusi taktı quruyub saxlamalıdırlar;

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir;

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiar_tizm problemini anlamaq öyrədilməli, onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir;

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir;

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

**050311 – Operator sənəti** ixtisası üzrə bakalavr hazırlığı aparan ali məktəbin bütün fənlər üzrə sanitar-gigiyenik normalara cavab verən auditoriya fondu, tədris materialları və tədris vəsaitləri olan kitabxana və oxu zalı, videoteka və filmotekası, kompüter otağı, printer və skaner avadanlığı, internetə çıxışı olmalıdır. İxtisas fənlərinin tədrisi üçün xüsusi avadanlıqlarla təmin olunmuş foto və kinopavilyonlar, çəkiliş, işıq və səsyazma texnikasının olması zəruridir;

7.2. **050311 – Operator sənəti** ixtisası üzrə dərs deyən professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəsi, elmi və ya fəxri adı olan, dövlət və yaxud özəl kino və televiziya studiyalarında, incəsənətin müvafiq sahələrində çalışan təcrübəyə malik mütəxəssislərdən ibarət olmalıdır. İxtisasla bağlı digər dövlət, yaxud özəl müəssisələrdə çalışan yüksək ixtisaslı mütəxəsisilər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin, əməli bacarıq və səriştələrinin təcrübədə tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir;

8.2. Təcrübə dövlət və özəl kino və telestudiyalarda, universitetin tədris studiyası və fotopavilyonda, xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər;

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq müəssisə arasında müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər müəssisədə, o cümlədən, xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur;

8.4. Təcrübə ali məktəb tərəfindən təyin edilmiş təcrürbə rəhbəri və təcrübə keçirilən müəssisədən tələbəyə təhkim olunmuş məsul şəxs və ya müvafiq şöbənin nümayəndəsinin iştirakı ilə kafedrada keçirilən təqdimat əsasında qiymətləndirilir.

## 9. Buraxılış işi

9.1. Təhsil Proqramı buraxılış işi-film ilə tamamlanır.

9.2. Təhsil müddətinin sonunda müdafiəyə əvvəlcədən müəyyən edilmiş janr, mövzu və xronometrajda film təqdim edilir.Qiymətləndirmə filmin komponetlərinə müvafiq meyarlara əsasən qiymətləndirilir.

## 10. Məşğulluq və ömürboyu təhsil

*10.1.* **050311 – Operator sənəti** ixtisası üzrə məzun olan bakalavrlar kino və telestudiyalarda operator, bədii kinoda rejissor və aktyor, sənədli film və televiziyada rejissor (müxbir), respondent, məsləhətçi və çəkiliş heyətinin üzvü işləyə bilərlər;

10.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir;

*10.3.* **050311 – Operator sənəti** ixtisası üzrə bakalavr proqramının məzunları təhsillərini Operator sənəti, Operator sənətinin tarixi və nəzəriyyəsi magistr proqramlarında davam etdirə bilərlər;

10.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini,
Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

__________________Yaqub Piriyev

"26" 08 2020-ci il

Mədəniyyət və incəsənət ixtisasları
qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri

__________________Ceyran Mahmudova

"25" 08 2020-ci il

**Əlavə 1**

## Təhsil Proqramı üzrə təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) | |
|---|---|
| PTN 1 | Kinofilm və televiziya layihəsinin təsvir həlli üzərində işləyərkən, müəllif yozumunu ekranda maddiləşdirərkən yaradıcı təşəbbüs göstərməyə hazır olmaq; yaradıcı heyət tərəfindən təsdiqlənmiş vahid vizual konsepsiyaya işləmək bacarığına yiyələnmək; |
| PTN 2 | Kinosenarinin rejissor konsepsiyasını ehtiva edən rejissor ssenarisinə transformasiyasını təmin edən yaradıcı prosesdə fərdi potensialını sərgiləmək, verbal informasiyanı "ekran dili"nə köçürmək bacarığına yiyələnmək; |
| PTN 3 | Kompozisiya elementləri və işıq rəsmi vasitəsilə kadrdaxili vizual informasiyanın sərrastlığını və ifadəliliyini artırmaq bacarığını əldə etmək; |
| PTN 4 | İstər bədii, istərsə də sənədli film və telelayihə çəkilişlərində fərdi qabilliyyətinə köklənərək, rejissor yozumuna işləmək qabiliyyətinə yiyələnmək; |
| PTN 5 | Ekran əsərinin vizual həllini ehtiva edən təsvir eksplikasiyası üzərində çalışarkən quruluşçu rəssamla birgə iş üsullarını mənimsəmək; |
| PTN 6 | **Təşkilati və idarəetmə fəaliyyəti:** bədii kinoda rejissor və aktyor, sənədli film və televiziyada rejissor (müxbir), respondent, məsləhətçi və çəkiliş heyətinin digər üzvləri ilə birgə çalışma, müasir rəqəmsal kino və teletexnologiyalarla işləmə vərdişlərinə yiyələnmək, operator qrupunun qüsursuz işini təmin edə bilmək. |

**Əlavə 2**

**Təhsil Proqramının təlim nəticələrinin matrisi**

| Blokun adı | Fənlərin adı | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 |
|---|---|---|---|---|---|---|---|
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | |
| | Azərbaycan tarixi | X | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | |
| İxtisas fənləri | İxtisasa giriş | X | | | | | |
| | Kinooperator sənəti | X | X | X | X | X | X |
| | Kino və televiziyada işıqlandırma | | | X | X | X | X |
| | Filmin istehsalı | | | | | X | X |
| | Multikulturalizmə giriş | X | | | | | |
| | Mülki müdafiə | X | | | | | |

| Təcrübə | | | X | X | X | X | X |
|---|---|---|---|---|---|---|---|

Əlavə 3

**Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları**

| Fənnin adı | Təlim nəticələri | Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları | Hər bir təlim nəticəsi üçün istifadə olunan qiymətləndirmə üsulları |
|---|---|---|---|
| İxtisasa giriş | ▪ Operator sənətinə aid olan vizual ifadə elementlərinin yaranması, rəngkarlıq və fotoqrafiyada təkmilləşdirilərək kinoya ötürülməsi ilə bağlı sistemli və dərin bilgilərə yiyələnməlidir;<br>▪ Dünya kinosunda operator peşəsinin formalaşaraq unikal sənət sahəsinə çevrilmə mərhələləri haqqında, fərqli məktəb və cərəyan üzvləri, tanınmış rejissorlarla birgə iş prosesinin gedişatında görkəmli kinooperatorların bu sənətə gətirdiyi yeniliklərlə bağlı ətraflı bilgiləri mənimsəməlidir;<br>▪ Səsin kinoya gəlişi ilə kinematoqrafik təsvir və bütövlükdə kino estetikasına yanaşmada nəzərə çarpan dəyişikliklər və təsvir müəlliflərinin diqqətini cəlb edən məqamlarla bağlı bilgilərə yiyələnməlidir;<br>▪ Rus-sovet kinosunda kinematoqrafik təsvirə və montaja ayrılan xüsusi diqqət və bu sahədə çalışan sənətçilərin Azərbaycan kinooperator məktəbinin yaranmasında müstəsna rolu haqqında ətraflı bilgilər əldə etməlidir; | Mühazirələr;<br>baxışlar;<br>müzakirələr;<br>təhlillər. | yazılı tapşırıqlar-<br>resenziyalar;<br>şifahi təhlillər;<br>frontal sorğu. |

| | | | |
|---|---|---|---|
| | ▪ Milli kinooperator məktəbi nümayəndələrinin filmlərində kinematoqrafik təsvirə yanaşmanın özəllikləri ilə bağlı bilgilər almalıdır.<br>▪ Çağdaş Azərbaycan kinosunda çalışan kinooperatorların, milli televiziyada fəaliyyət göstərən yerli teleoperatorların ekran nümunələrində üslub rəngarəngliyi haqqında ətraflı bilgilər əldə etməli. | | |
| Kinooperator sənəti | ▪ Kinematoqrafik təsvir və onun təbiəti, vizual informasiya daşıyıcıları və onların yükü, görüntüyə bağlı ifadə vasitələrinin vizual sənət sahələrində təkamülü, kinokadr və çəkiliş planı, müəllif fikrinin maddiləşməsində onların rolu və kinematoqrafik vahid kimi kadrın komponentləri ilə bağlı bilgilərə yiyələnməlidir;<br>▪ Kinooperator kimdir, rejissor senarisi və filmin quruluşu ilə bağlı layihə planının hazırlanmasından başlayaraq müəllif yozumunun ekranda maddiləşməsinə qədərki prosesin bütün mərhələlərində təsvir müəllifinin üzərinə düşən vəzifələr, onun görməli olduğu işlərlə bağlı ətraflı bilgilər almalıdır;<br>▪ Bədii, sənədli filmlər, eləcə də televiziya layihələri və reportaj üzərində çalışan operator sənətinin spesifik özəlliklərini tam mənimsəməlidir;<br>▪ Kinolentə çəkən analoq tipli, eləcə də müasir rəqəmsal tipli kameralardan, işıqlandırma avadanlığından və hərəkətli çəkiliş üsullarını, vizual effektləri təmin edən texniki vasitələrdən qüsursuz istifadə bacarığına yiyələnməlidir;<br>▪ Natura, interyer və pavilyonda çeşidli miqyas planlarının | baxışlar;<br>müzakirələr:<br>təhlillər;<br>praktik çəkilişlər. | yazılı tapşırıqlar;<br>şifahi təhlillər;<br>frontal sorğu;<br>etüd və kurs işlərinin, diplom filmlərinin müdafiəsi. |

| | | | |
|---|---|---|---|
| | kompozisiya, işıq rəsmi və kameranın hərəkəti baxımından müəllif yozumunun sərrastlığını təmin edəcək səviyyədə işləmək bacarığı əldə etməlidir;<br>▪ Eksponometriya və kolorimetriya, aşkarlama, eləcə də işıq və rəng əyarlamalarını özündə ehtiva edən “color grading” proseslərinin gedişat spesifikası ilə bağlı bilgiləri mənimsəməlidir. | | |
| Kino və televiziyada işıqlandırma | ▪ Müəllif yozumunun “ekran obrazı”na transformasiyasında kino və teleişıqlandırmanın rolu, işığın ikili təbiəti, işıq hadisələri və qanunları, işıqlandırma növləri, kompozisiya elementi və ekran görüntüsünü təmin edən vasitə kimi işıq rəsminin yükü, işıq sxemləri və həmin sxemlərdə konkret mənbələrin funksiyaları, eləcə də fotometrik kəmiyyətlərə dair nəzəri bilgilərə yiyələnməlidir;<br>▪ Fərqli işıq rəsmi şəraitində “Key light” - “Açar işığı”nın müəyyənləşdirməsi, qüsursuz eksponometrik və kolorometrik hesablama üsulları ilə bağlı təcrübi vərdişlər əldə etməlidir;<br>▪ Naturada fərqli işıqlandırma şəraitində işıq rəsminin bu və ya digər növündən istifadəni şərtləndirən amillər və işıq sxeminin qurulma spesifikası ilə bağlı nəzəri bilgilər və praktik vərdişlər əldə etməlidir;<br>▪ Naturada “Rejim” və “Gecə” çəkilişləri zamanı işıqlandırmanın spesifik özəllikləri, işıq sxeminin qurulma spesifikası ilə bağlı nəzəri bilgilər və praktik vərdişlər əldə etməlidir;<br>▪ Yarımqapalı interyer çəkilişləri prosesinin gedişatı zamanı qarışıq | mühazirələr;<br>baxışlar;<br>müzakirələr;<br>təcrübi məşğələlər;<br>təhlillər. | yazılı tapşırıqlar; |

| | | | |
|---|---|---|---|
| | işıqlandırma şəraitində təbii və süni işıq mənbələrindən birgə istifadənin spesifikası, neytral boz-ND, konversiya və korreksiya filtrlərindən istifadə üsulları haqqında bilgilər almalı, praktik vərdişlər əldə etməlidir;<br>▪ Pavilyon çəkilişləri prosesində işıqlandırmanın özəllikləri ilə bağlı nəzəri bilgilər almalı, əməli çalışmalar vasitəsilə təcrübi vərdişlər əldə etməlidir. | | |
| Filmin istehsalı | ▪ Film istehsalına bağlı çoxmərhələli prosesdə görülən işləri öyrənməli, operatorun, eləcə də çəkiliş heyətinin digər üzvlərinin üzərinə düşən konkret vəzifələri, onların yerinə yetirəcəyi funksiyaları açıqlayan bilgilərə yiyələnməlidir;<br>▪ Sifarişçinin təqdim etdiyi ssenarinin əsasında filmin rejissor ssenarisinin hazırlanması, həmin mərhələdə görüləcək işlər, o cümlədən layihənin təsvir və səs həllinin müəyyən edilməsi, "lokasiya"nın keçirilməsindən sonra çəkiliş obyektlərinin, rəssamın təqdim etdiyi eskizlərin təsdiqlənməsi, ilkin variantın Bədii Şura qarşısında müdafiəsi ilə bağlı nəzəri bilgilər əldə etməli, qeyd olunmuş sənədlərin hazırlanması ilə bağlı konkret peşə vərdişlərinə yiyələnməlidir;<br>▪ Film istehsalının "çəkilişlərə hazırlıq mərhələsi"ndə operatorla digər işçilərin görməli olduğu işlərlə tanış olmalıdır, rejissor ssenarisi və yaxud ssenari planına istinadən "decoupage" və "storyboard" kimi sənədlərin hazırlanma, "casting"in keçirilmə, ifaçıların, dekorasiya və interyerlərin, geyim və makiyajın təsdiq olunma texnologiyasına | baxışlar;<br>müzakirələr;<br>peşəkar studiyalar ilə əyani tanışlıq;<br>təhlillər. | Yazılı tapşırıqlar;<br>şifahi təhlillər;<br>frontal sorğu. |

| | | | |
|---|---|---|---|
| | yiyələnməlidir;<br>▪ Film istehsalının "çəkiliş mərhələsi"ndə yaradıcı və texniki heyətin hər bir üzvünün üzərinə düşən vezifələr, "kadra nəzarət" qaydaları, rejissorla "əks əlaqə" mexanizmi, "dubl"ların seçilmə texnologiyası ilə əyani şəkildə tanış olmalıdır;<br>▪ Film istehsalının "postproduction" mərhələsində operatorun görməli olduğu işlərin, qrafika rəssamlarına verilən tapşırıqların spesifikası ilə tanış olmalıdır, hazırlanmış işçi materialın həmin mütəxəssislərdən qəbul qaydalarını bilməlidir.<br>▪ Film istehsalının son, yəni tamamlama mərhələsində reallaşan "Color Grading" prosesində operatorun görəcəyi işlərin, yəni işıq və rəngə görə əyarlamaların özəllikləri, sifarişçiyə təhvil prosesinin gedişatı ilə tanış olmalıdır. | | |
| Multikulturalizmə giriş | ▪ Multikulturalizmin mahiyyəti, multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi, multikulturalizmin formalaşmasının əsas səbəbləri, multikulturalizmin assimilyasiya və izolyasiya siyasət modelləri ilə müqayisəli təhlili ilə bağlı biliklərə yiyələnməlidir;<br>▪ Dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elmi ədəbiyyatda irəli sürülən nəzəriyyələrlə tanış olmalı. İbtidai inanc formaları barədə məlumatlar əldə etməlidir;<br>▪ Sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş əsas nəzəri müddəalara tanış olmalı, insanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik | Mühazirələr.<br>Seminarlar,<br>Dəyirmi masalar,<br>Debatlar. | |

| | | | |
|---|---|---|---|
| | dəyərlər və milli mentalitet, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu barədə məlumatlar əldə etməlidir;<br><br>▪ Multikulturalizm siyasət modelinin mahiyyəti və əhəmiyyəti, onun assimilyasiya, izolyasiya və aparteid siyasət modelləri haqqında biliklər əldə etməlidir;<br>▪ Multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi bacarmalıdır;<br>▪ Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı məlumatlar əldə etməlidir. | | |
| Mülki müdafiə | ▪ Mülki müdafiənin əsaslarını, qüvvə və vasitələrini bilməlidir;<br>▪ Fövqəladə hallar və onların xarakteristikalarını bilməlidir;<br>▪ Fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsi haqqında biliklərə yiyələnməlidir.<br>▪ Fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarmalıdır;<br>▪ Fövqəladə halların nəticələrinin aradan qaldırılmasının təşkili və həyata keçirilməsi haqqında biliyə malik olmalıdır. | | |